AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
ARXEOLOGİYA VƏ ANTROPOLOGİYA İNSTİTUTU

# AZƏRBAYCANDA ARXEOLOJİ VƏ ANTROPOLOJİ TƏDQİQATLAR: NƏTİCƏLƏR VƏ PERSPEKTİVLƏR

***Azərbaycan Milli Elmlər Akademiyasının 80 illiyinə***

*həsr olunmuş*

ELMİ SESSİYANIN

# TEZİSLƏRİ

BAKI
*14-15 May 2025-ci il*

Məsul redaktor: **F.E.Quliyev**
*tarix üzrə fəlsəfə doktoru, dosent*

Redaksiya heyəti: **Z.H. Həsənov**
*tarix elmləri doktoru*

**E.A.Bəkirova**
*tarix üzrə fəlsəfə doktoru, dosent*

**B.İ.İbrahimli**
*tarix üzrə fəlsəfə doktoru, dosent*

**P.P.Qasımov**
*tarix üzrə fəlsəfə doktoru*

**T.R.Əliyev**
*tarix üzrə fəlsəfə doktoru, dosent*

**M.M.Hüseynov**
*tarix üzrə fəlsəfə doktoru, dosent*

**AZƏRBAYCANDA ARXEOLOJİ VƏ ANTROPOLOJİ TƏDQİQATLAR: NƏTİCƏLƏR VƏ PERSPEKTİVLƏR.**
*Azərbaycan Milli Elmlər Akademiyasının 80 illiyinə həsr olunmuş elmi sessiyanın tezisləri.*
Bakı: 2025,– 144 s.

**ISBN** 978-9952-598-04-9

AZ1143, Bakı şəhəri
Hüseyn Cavid prospekti, 115
Tel.: +994 (12) 510 84 19
www.arxeologiya.az

© AMEA Arxeologiya və Antropologiya İnstitutu, 2025

# İÇİNDƏKİLƏR

## ARXEOLOGİYA

### DAŞ DÖVRÜ


**Azad Zeynalov, Yoshihiro Nishiaki, Yaqub Məmmədov, Ülviyyə Səfərova, Pərivəs Babai.**
*2024-cü ildə Azərbaycan-Yaponiya birgə paleolit arxeoloji ekspedisiyasının Tağlar mağarasında apardığı çöl-tədqiqat işlərinin nəticələrinə dair* ........ 10

**Azad Zeynalov, Pərivəs Babai.**
*Naxçıvan Muxtar Respublikasında 2024-cü ildə aparılmış arxeoloji tədqiqatlar* ........ 13

**Yaqub Məmmədov, Azad Zeynalov, Mansur Mansurov, Musa Mursaquliyev, Səadət Əliyeva.**
*"Qazax paleolit arxeoloji ekspedisiyası"nın 2024-cü ildə Qazax və Ağstafa rayonları ərazisində apardığı kəşfiyyat işlərinin nəticələrinə dair* ........ 17

**Əjdər Babazadə, Joao Marreiros, Vüsal Həsənov, Şahin Səlimbəyov, Aslan Qasımov, Cavid Bayramov, Günel Nəbisoy.**
*Azıx Beynəlxalq Paleolit arxeoloji ekspedisiyasının 2024-cü ildə apardığı arxeoloji tədqiqatlar haqqında* ........ 20


### NEOLİT


**Xəqani Alməmmədov, Mircavid Ağalarov, Karolina Hruby, Nihad Məmmədli, Fərrux Ələsgərov, Xanım Həsənli.**
*Yüzbaşılı neolit dövrü yaşayış məskənində 2024-cü ildə aparılmış arxeoloji tədqiqatlar* ........ 22

**Vəfa Mahmudova.**
*Paşatəpədə 2024-cü il qazıntılarının nəticəsi haqqında* ........ 25

**Nəcəf Müseyibli, Anar Ağalarzadə, Gülnarə Axundova, Mətanət Hüseynova.**
*Çağrıtəpədə 2024-cü ildə aparılmış arxeoloji qazıntılar* ........ 27

Yaqub Məmmədov, Azad Zeynalov,
Mansur Mansurov, Musa Mursaquliyev,
Səadət Əliyeva

# "QAZAX PALEOLİT ARXEOLOJİ EKSPEDİSİYASI"NIN 2024-CÜ İLDƏ QAZAX VƏ AĞSTAFA RAYONLARI ƏRAZİSİNDƏ APARDIĞI KƏŞFİYYAT İŞLƏRİNİN NƏTİCƏLƏRİNƏ DAİR

2024-cü il 1-30 iyul tarixlərində Qazax paleolit arxeoloji ekspedisiyası AMEA Arxeologiya və Antropologiya İnstitutunun aparıcı elmi işçisi, t.ü.f.d. Yaqub Məmmədovun rəhbərliyi ilə Qazax və Ağstafa rayonları ərazisində arxeoloji kəşfiyyat işləri aparmışdır. Arxeoloji kəşfiyyat işlərinin əsas məqsədi qədim çay terraslarına, mağaralara baxış keçirmək və kəşfiyyat şurfları qazmaq olmuşdur.

Ağstafa rayonun Köçəsgər kəndindən 1.7 km cənubda yerləşən Qaya yatağı adlanan əraziyə və terraslara (41°02'05.6"şm və 45°31'27.8" ş.u. hündürlük 482 m), Eynallı kəndi yaxınlığındakı şosse yolunun kənarında yerləşən kəsiyə (41°04'43.7"şm və 45°29'51.1" ş.u, hündürlük 327 m), eləcə də Ağstafa çay su anbarının (Didivan gölü) cənub hissəsinə (41°02'11.7" şm və 45°17'42.9" ş.u, hündürlük 526 m) baxış keçirilmiş, təəssüf ki, qeyd olunan ərazilərdə heç bir arxeoloji nümunə aşkar olunmamışdır.

Tədqiqatlarımızı daha öncə alt və orta paleolit düşərgələrinin aşkar olunduğu Ceyrançöl bölgəsində davam etdirdik. Bu zaman "Keşikçidağ" Dövlət Tarix-Mədəniyyət Qoruğunun ərazisində, Candargölündən 950 metr cənubda, dəniz səviyyəsindən 320 metr yüksəklikdə Paleolit dövrünə aid yeni tapıntı yeri aşkar olundu. Orta Paleolit dövrünə aid daş məmulatların aşkar olunduğu ərazi, şərti olaraq "Candargöl paleolit tapıntı yeri" kimi qeydə alındı. Tapıntıların arasında diqqəti cəlb edən levallua nukleusların və levallua qəlpələrin olması tapıntı yerini Orta Paleolitin kifayət qədər inkişaf etmiş mərhələsinə aid etməyə imkan verir.

Ceyrançöl paleolit abidələrinin öyrənilməsi M. Mansurovun adı ilə bağlıdır. 1987–1989-cu illərdə M.M.Mansurov tərəfindən "Ceyrançöl paleolit mədəniyyəti" kimi adlandırılan, Böyük Qafqazın cənub qolunda, Ceyrançöldə, Candargölün (Ağ gölün) şimalında, Qarabağ tirəsinin cənub ətəyində, Bakı yaşlı terras üzərində yerləşən Orta Aşel dövrünə aid

açıq tipli Qaradüz, Sarıburun, 2008-ci ildə isə Saqqızlı paleolit düşərgələri qeydə alınıb.

Kəşfiyyat işləri zamanı 124 nümunə götürülmüşdür. İki yaxın ərazidə təxminən 1,5 hektar sahədə minlərlə belə nümunə var. İki sahə arasında boşluq təxminən 50 m təşkil edir. Toplanan daş artefaktların 78 ədədi qəlpə (o cümlədən onlardan 18 ədədi üçbucaq qəlpədir), 15 ədədi nüvə, 7- si isə alət və digər hissəsi tullantıdır. Qəlpələrin 12 ədədi ilkin qəlpədir.

Xammal kimi vulkan bombasından istifadə olunmuşdur. Cəmi 4 artefakt çay daşından hazırlanmışdır. Əldə olunmuş daş artefaktların arasında hazırlıqların, o cümlədən ilkin qəlpələrin, nukleusların və tullantıların çoxluğu və alətlərin cəmi 5% olması tapıntı yerini Orta Paleolit dövrü emalatxanası kimi qiymətləndirməyə əsas verir.

Düşərgənin (emalatxana) ətraflı öyrənilməsi məqsədi ilə müxtəlif hissələrdə təxminən bir-birindən 20-30 m məsafədə 4 kəşfiyyat şurfu qazdıq. 2 x 1 m sahədə qazılan birinci şurfun ümumi dərinliyi 30 sm təşkil etmişdir və xırda daş-çınqıl təbəqəsinin davam etdiyi müşahidə olunmuşdur. İkinci şurfun sahəsi 1 x 1 m, dərinliyi 40 sm təşkil etmiş və əhəng qatışıqlı torpağın davam etdiyi müşahidə olunmuşdur. Üçüncü şurfun sahəsi 1 x 1 m, dərinliyi 90 sm, dördüncü şurfun sahəsi 1 x 1 m, dərinliyi isə 60 sm təşkil etmişdir. Hər iki şurfda üst qat 10 sm qara, digər hissə sarımtıl torpaq təbəqəsindən ibarət olmuşdur. Təəssüf, ki qeyd olunan şurflardan heç bir nə arxeoloji, nə də paleontoloji material aşkar olunmadı.

Daha sonra kəşfiyyat işləri Ceyrançölün daha yüksək dağlıq ərazilərində davam etdirildi. Ərazidən 5 qəlpə, nüvə və əmək aləti aşkar olunmuşdur (41°26'33.5" şm 45°17'46.5" ş.u, mütləq hündürlük 658 m).

Qazax rayonunda aparılmış tədqiqatları iki hissəyə ayırmaq olar: açıq tipli düşərgələrdə və yeni aşkar olunmuş mağarada aparılmış tədqiqatlar.

Qazax rayonu Birinci Şıxlı kəndinin təxminən 1 km cənub-qərbində yerləşən Qədirdərə (41°17'33.4"şm və 45°07'44.0"ş.u, hündürlük 300 m) və 400 m cənubda yerləşən I Yataq yeri (41°17'10.7"şm və 45°08'14.4" ş.u, hündürlük 395 m), Alpout kəndindən təxminən 1 km şimal-qərbdə yerləşən Haça çal dağı ətəyi terraslarda (41°05'40.1" şm və 45°12'04.5"ş.u, hündürlük 617 m) və 200 m cənubda yerləşən terraslarda (41°05'07.6" şm və 45°13'14.2"ş.u, hündürlük 621) tədqiqatlar aparılmışdır. Qeyd etmək lazımdır ki, Haça çal dağında çaxmaqdaşı

qayaları müəyyən olunmuşdur. Daşsalahlı və Damcılı mağaralarından aşkar olunmuş çaxmaqdaşı alətlərin mənşəyi bu dağdan olduğunu düşündük.

Aparılmış tədqiqatlar nəticəsində I Yataq yerindən, Haça çal dağı ətəyi terraslardan bir neçə qəlpə və əmək aləti aşkar olunmuşdur. Qeyd etmək lazımdır ki, Yataq yeri daha əvvəl qeydə alınmış abidə olsa da, Haça çal ətrafı tapıntılar yenidir. Bununla belə çox az sayda və nadir olduğuna görə burada kəşfiyyat şurfunun qazılmasını məqsədə uyğun hesab etmədik.

2024-cü ildə AMEA Arxeologiya və Antropologiya İnstitutuna Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin "Avey" Dövlət Tarix-Mədəniyyət Qoruğunun əməkdaşları tərəfindən Avey dağında aşkar olunmuş yeni mağara ilə bağlı müraciətinə müvafiq olaraq, 12-20 iyul tarixlərində qeyd olunan mağarada ilkin tədqiqatlar aparılmışdır.

Mağara Daş Salahlı kəndindən 2.3 km cənubda, Məmməd Koxa bulağının yaxınlığında, dəniz səviyyəsindən 552 m yüksəklikdə yerləşir (41°08'35.9"şm və 45°14'11.6"ş.u). Mağaranın ümumi uzunluğu 19.6 m, hündürlüyü 3.20 m, eni ağız hissə 1.41 m orta hissədə 2.93 sm arası dəyişir.

Mağara bir böyük qayanın digəri üzərinə aşması nəticəsində yaranmışdır. Buna görə də mağaranın içi, xüsusən arxa hissəsində 5 m uzunluğunda sahə qaya parçaları ilə dolu vəziyyətdədir. Mağaranın giriş hissəsində, üst təpəqənin daş və qaya parçaları ilə örtülü olan təxminən 50 sm hissəsi Qoruq əməkdaşları tərəfindən təmizlənmişdir. İlkin olaraq üçüncü kvadratda 1x2 m şurf qazmağa çalışsaq da, iri ölçülü qaya parçaları aşkar olunduğuna görə sahəni 2x3 m-ə qədər genişləndirdik.

1.7 m dərinlikdə 60 sm enində 20 sm hündürlüyündə ocaq yeri və eyni dərinlikdə Son Orta əsrlərə aid 7 keramika parçası aşkar olunmuşdur. Ocaq üzərində daş və çürüntülü torpaq qatının aşkar olunması, uçqunların daha sonra da davam etdiyini göstərir. Qeyd etmək lazımdır ki, aşkar olunan qaya parçalarının bəzilərini ölçüləri 1.2x0,80 m, 1.5x1,0 m və daha böyük olmuşdur ki, bunların kənarlaşdırılması bir neçə gün vaxt almışdır .

Üst qaya parçaları və çürüntülü torpaq qatı 3 m davam etmişdir. Bu təbəqənin altında 1.1 sm qalınlığında xırda qum dənəli bozumtul torpaq təbəqəsi aşkar olunmuşdur. Beləliklə, ümumi dərinlik 4.1 sm olmaqla 6 m$^2$ ərazidə tədqiqat aparılmışdır. Çox təəssüf ki, bu hissədə heç bir mədəni təbəqə aşkar olunmamışdır. Bununla belə, gələcəkdə

mağara turizm məqsədlər üçün istifadə oluna bilər. Bu məqsədlə digər hissələrdə üst təbəqələr təmizləndiyi halda, həmin hissələrin də yoxlanması faydalı ola bilər.

Aparılmış kəşfiyyat işləri zamanı daha öncə qeydə alınmış bir neçə abidənin koordinatları müəyyən olundu ki, bu bizə gələcəkdə paleolit abidələrinin xəritəsinin hazırlanması zamanı mütləq lazımdır. Digər tərəfdən ehtimal olunan bir neçə ərazinin belə potensiala malik olunması kəşfiyyat işləri ilə inkar olundu.

Ən mühüm nəticələrdən biri yeni paleolit düşərgəsinin (emalatxana) – Candargöl paleolit düşərgəsinin qeydə alınması oldu. Əldə olunmuş daş kolleksiyasının tərkibi yeni kəşf olunmuş paleolit tapıntı yerini orta paleolitin inkişaf etmiş mərhələsinə aid olan emalatxana kimi qiymətləndirməyə əsas verir. Ümumiyyətlə, son 30 il ərzində Kür çayının sol sahilində - Ceyrançöldə, Candargölün şimalında dağ silsiləsinin ətəklərində aşkar olunmuş paleolit abidələri Son Aşel və Orta Paleolitin bir neçə mərhələlərində insanlar tərəfindən intensiv məskunlaşmasını göstərir. Yeni aşkar olunmuş Candargöl emalatxana düşərgəsi bu fərziyyəni bir daha təsdiqləyir.

Əjdər Babazadə, Joao Marreiros,
Vüsal Həsənov, Şahin Səlimbəyov,
Aslan Qasımov, Cavid Bayramov, Günel Nəbisoy

## AZIX BEYNƏLXALQ PALEOLİT ARXEOLOJİ EKSPEDİSİYASININ 2024-CÜ İLDƏ APARDIĞI ARXEOLOJİ TƏDQİQATLAR HAQQINDA

Azıx beynəlxalq paleolit arxeoloji ekspedisiyası 2024-cü il üçün əsas məqsədlərindən biri Azıx mağarasının digər girişlərində tədqiqat aparmaqdı. Azıx mağarasının əsas girişində ilk tədqiqatlar 1960-1980-ci illərdə Məmmədəli Hüseynovun rəhbərliyi ilə aparılmışdır. Azıx mağarasının əsas salonu olan böyük hissəyə irili-xırdalı 6 giriş vardır. Bu girişlərin hamısı mağaranın yerləşdiyi dağın cənub kəsiyində yer alır. Lakin karst mağara olan Azıxda təbii geoloji proseslər zamanı, mağaraın girişlərindən 3-cü sedimentlər tərəfindən tutulmuşdur. I, V və VI girişlər açıqdır və bu girişlərdən salonlara keçid var. I və VI girişlər tunel şəklin-

# AZƏRBAYCANDA ARXEOLOJİ VƏ ANTROPOLOJİ TƏDQİQATLAR: NƏTİCƏLƏR VƏ PERSPEKTİVLƏR

*Azərbaycan Milli Elmlər Akademiyasının*
*80 illiyinə*
*həsr olunmuş*

ELMİ SESSİYANIN

# TEZİSLƏRİ

Bakı
*14-15 May 2025-ci il*

Mətbəənin direktoru – Fuad HÜSEYNOV
Texniki redaktor – Azər RƏSULOV
Texniki korrektor – Təranə RƏHİMOVA
Dizayner – Samirə QAMBAYEVA
Çap – Oktay YUSİFOV
Səhifələnmə – Günel ƏSƏDOVA
Cild – Gövhər NURULLAYEVA
– İlhamə MİKAYILOVA

*Kitab* ***"AFPoliqrAF"*** *mətbəəsində hazır diapozitivlərdən ofset üsulu ilə çap olunmuşdur.*

afpoliqraf@mail.ru
afpoliqraf@gmail.com

Tel.: +994 (12) 510 96 74
Mob.: +994 (50) 405 96 74

Yığılmağa verilmişdir: 04.04.2025
Çapa imzalanmışdır: 08.05.2025
Qarnitura: Tahoma, Times New Roman
Şərti çap vərəqi: 9
Formatı: 70x100 1/16
Tiraj: 150